# BÖLMƏ III.
# AQRAR PROBLEMLƏR VƏ ONUN HƏLLİ İSTİQAMƏTLƏRİ

UOT 338.43

*Səadət Mirağa qızı MƏCİDOVA*
*Azərbaycan Dövlət İqtisad Universiteti, müəllim*

## AQRAR SAHƏNİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİ

*Xülasə*

Sahənin investisiya cəlbediciliyi onun yüksək inkişaf səviyyəsini xarakterizə edən göstəricilərindən biridir. Bu baxımdan onun optimal səviyyəsinin saxlanılması və yüksəldilməsi aqrar sahənin inkişafının prioritet istiqamətlərindən biri kimi qəbil edilir. Onun təmin edilməsi məqsədilə dövlət tərəfindən təsərrüfat subyektlərinə texniki və maliyyə himayədarlığı,vergi və kredit güzəştlərinin edilməsi sisteminin təkmilləşdirilməsi məsələləri ön plana çıxır.

Təqdim olunan məqalədə strateji proqram, layihə və konsepsiyalar əsasında aqrar sektorun investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətləri öz əksini tapmışdır.

***Açar sözlər: investisiya, səmərəlilik, büdcə, rəqabət, vergi, rentabellik, mənfəət.***

### *Giriş*

İqtisadiyyatın hər bir bölməsinin davamlı inkişafı onun investisiya imkanlarına söykənir. Nəzərə almaq lazımdır ki, investisiya təminatının fasiləsizliyi qarşıya qoyulan məqsədərə nail olunmasına real zəmin yaradır. Bu da sahənin investisiya cəlbediciliyinin təmin olunması zərurətini qarşıya qoyur. Adı çəkilən göstərici üzrə iqtisadiyyatın sahələri bir-birindən əhəmiyyətli şəkildə fərqlənirlər. Ona görə ki, heç bir sahə investisiya cəlbediciliyi göstəricilərinə, o cümlədən investisiyanın ödəmə müddəti, gəlirlilik indeksi, risk səviyyəsi və s. görə digərini təkrarlamır. Bu baxımdan aqrar sfera da istisna deyil. Burada istehsalın təbii-iqlim şəraiti ilə bağlılığı, təsərrüfat mövsümünün uzunmüddətli olması, istehsal məhsullarının tədarükünə və saxlanılmasına olan tələblər fərqli yanaşmaları ortaya qoyur. Ona görə də aqrar sferada investisiya cəlbediciliyinin yüksəldilməsi üçün təsərrüfat subyektlərinə dövlət dəstəyi, aqrar sığorta, məşğulluq və gəlirlərin tənzimlənməsi məsələlərinə kompleks şəkildə baxılmalıdır.

**Aqrar sahəyə investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsi üzrə əsas vəzifələr**

İnvestisiyalar aqrar sahənin inkişafını şərtləndirən başlıca amillərdən biridir. Bu baxımdan iqtisadiyyatın bu bölməsinin investisiya cəlbediciliyinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Mahiyyət etibarilə investisiya cəlbediciliyi dedikdə bu və ya digər obyektə investorun investisiya qoymasına stimul yaradan sosial-iqtisadi və təbii şəraitin məcmusu başa düşülür. Aqrar sahənin investisiya cəlbediciliyinə bir çox amillər təsir göstərir. Bu göstəricinin yüksəldilməsi sahədə iinvestisiya fəaliyyətinin aktivləşdirilməsinin vacib şərtlərindən biridir.

İnvestisiya cəlbediciliyinin yükksəldilməsi ilk növbədə dövlət dəstəyinə ehtiyac yaradır ki, bu da məqsədli proqramların maliyyələşdirilməsinə, büdcə ssudaları, subsidiyalar və dotasiyalar hesabına kənd təsərrüfatı məhsullarına çəkilən xərclərin bir hissəsinin kompensasiya olunmasına şərait yaradır [3, s.348]. Bu baxımdan nəzərə alınmalıdır ki, aqrar sahədə investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsi aşağıda göstərilən tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi hesabına mümkün ola bilər:

- təcrübədə praktiki tətbiq olunmuş və nəticə etibarilə özünü doğruldan tipik layihələrin tətbiqi. Bu, vaxta və obyektin layihələndirilməsi xərclərinə qənaət edilməsinə, eləcə də səmərəsiz layihələrin seçimi riskindən kənarlaşmağa imkan verir;
- vəsait qoyuluşunun kompleksliyinin təmin olunması. Buna misal olaraq, heyvandarlıqda binaların, yem sexlərinin və heyvanların yetişdirilməsi arasında uyğunluğun əldə edilməsini göstərmək olar;
- investisiya qoyuluşu prioritetlərinin düzgün seçilməsi və onların səmərəli tətbiqi. Səmərəlilik baxımından investisiyanın ilk növbədə fəaliyyətdə olan obyektin yenidən qurulmasına yönəldilməsi məqsədəuyğun hesab olunur. Ona görə ki, bu zaman çəkilən xərclərin qaytarılması yeni tikintiyə sərf olunan xərclərdən 2-3 dəfə qısa müddətdə baş verir;
- investisiya qoyuluşunun bir neçə obyekt arasında bölüşdürlməsi təcrübəsindən imtina etmək. Belə ki, investisiyanın daha vacib obyektin tikintisinə yönəldilməsi tikintinin fasiləsizliyinə və obyektin vaxtında istismara verilməsinə şərait yaradır;
- elmin, texnikanın son nailiyyətlərinin praktiki tətbiqinin iqtisadi rejiminin gözlənilməsi. Bu amil müxtəlif məhsullara fərqli yanaşmanı ortaya qoyur. Qeyd oluna bilər ki, çəyirdəkli bitkilərin yetişdirilməsinə dörd, toxumlu meyvələrin yetişdirilməsinə isə səkkiz il vaxt tələb olunur. Belə çıxır ki, xərclərin qaytarılması birincilərdə 5-6 il, ikincilərdə isə 9-10 il müddətində mümkündür.

Aqrar sahənin investisiya cəlbediciliyi həm də təbii iqlim şəraiti ilə bağlıdır. Onun iqtisadi səmərəliliyinə isə əlavə olaraq,istehsal və sosial infrastrukturların vəziyyəti, vergi və kredit güzəştləri, konkret müəssisənin maliyyə vəziyyəti də öz təsirini göstərir.Bir müddəanı da qeyd etməliyik ki, aqrar sahədə rentabellik səviyyəsinin aşağı olması bu sahəyə investisiya axınını məhdudlaşdıran vacib amillərdən biridir [5, s.72].

Beləliklə, aqrar sahənin davamlı inkişafına dair başlıca vəzifələrin siyahısına əsasən aşağıdakıları aid etmək olar:

- aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi;
- ölkədə ərzaq təminatı potensialının gücləndirilməsi;
- regionların tarazlı sosial-iqtisadi inkişafının təmin olunması;
- qısa müddətli (10-15 günlük) istifadə üçün zəruri olan texnikanın, dərmanların və gübrələrin satışı mərkəzlərinin yaradılması;
- aqrar istehsalçıların bazar mövqeyinin möhkəmləndirilməsi;
- aqrar sahibkarların iqtisadi maraqlarının və mənafelərinin təmin olunması [4, s. 6].

Göstərilən vəzifələrin reallaşdırılması məqsədilə 2011-2025-ci illər arasındakı dövrü əhatə edən uzunmüddətli iqtisadi inkişaf strategiyası və Azərbaycanın ekoloji təmiz məhsul brendinin yaradılması üzrə təkliflər hazırlanmışdır.

**Aqrar sahənin investisiya cəlbediciliyi göstəricilərinin təhlili.** Aqrar sahənin inkişafında məqsədyönlü investisiya siyasətinin həyata keçirilməsi, mövcud investisiya potensialının qiymətləndirilməsi və sahə üçün spesifik olan iqtisadi risklərin idarə edilməsi mühüm əhəmiyyətə malikdir. Şübhəsiz ki, müvafiq tədbirlərin həyata keçirilməsi potensial maliyyə mənbələrinə söykənir. İnvestisiyalaşdırılacaq tədbirlər arasında aqrar sənaye müəssisələrinin yüksək parametrlərə malik olan yeni texnika və texnologiya tələbatının təmin olunması xüsusi yer tutur. Eyni zamanda maliyyə-kredit mexanizmi vasitəsilə zərərlə işləyən aqrar sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilə olunmalı və onlar yekun fəaliyyət göstəricilərinə görə stimullaşdırılmalıdır.

Aqrar sahədə investisiyalaşdırmanın ilkin məqsədlərindən biri müasir texnika və texnologiyanın tətbiqi, ixtisaslı kadr potensialından istİfadə əsasında istehsal edilən məhsulların maya dəyərinin aşağı salınmasıdır. Bu ondan irəli gəlir ki, məhsulun maya dəyərinin aşağı olması istehsalçıların rəqabət imkanlarını və gəlirlərini artıra bilər. Nəticədə müəyyən dövr ərzində istehsalçıların investisiya etmək imkanları da yaranır [6, s. 289].

Məlumdur ki, iqtisadiyyatın istənilən sahəsində investorları cəlb edən, onu investisiya qoyuluşuna sövq edən əsas parametr əldə olunan mənfəətin məbləği yaxud rentabellik səviyyəsidir. Bir məsələni də nəzərə almaq lazımdır ki, rentabelliyin istənilən səviyyəsi hər bir investor və ya fermer





üçün məqbul sayılmır. Ona görə də dövlət tərəfindən iqtisadi-hüquqi dəstəyin (subsidiyalaşdırma, qiymət tənzimlənməsi və s.) göstərilməsi ilə sahəvi rentabellik səviyyəsinin digər sahələrlə müqaiysə olunacaq səviyyəyə çatdırılması vacib sayılır. Bu baxımdan əsas növ kənd təsərrüfatı məhsullarının rentabelliyinin illər üzrə dəyişməsi dinamikasının təhlili məqsədəuyğundur.

*Cədvəl 1.*

***Kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların rentabelliyi, faizlə.***

| İllər | Taxıl (qarğıdalısız) | Pambıq | Şəkər çuğunduru | Tütün | Kartof | Tərəvəz | Bostan bitkiləri | Meyvə |
|---|---|---|---|---|---|---|---|---|
| 2015 | 47,3 | 10,6 | 201,8 | 83,0 | 17,6 | 71,4 | 43,1 | 24,8 |
| 2016 | 45,8 | 7,3 | 71,0 | - | 261,1 | 17,8 | 33,2 | 17,7 |
| 2017 | 53,6 | - | 25,7 | 179,0 | - | 40,3 | 18,5 | 30,0 |
| 2018 | 56,2 | 27,2 | 55,0 | 87,7 | 27,5 | 42,8 | 73,6 | 28,5 |
| 2019 | 55,0 | 12,9 | 88,6 | 51,0 | 47,4 | 12,1 | 44,4 | 41,0 |

| İllər | Üzüm | Çay yarpağı | Çəki artımı | | | Süd | Yun |
|---|---|---|---|---|---|---|---|
| | | | qaramal | Qoyun və keçi | quş | | |
| 2015 | 14,1 | - | 2,4 | 37,9 | 3,0 | 23,9 | 26,7 |
| 2016 | 4,2 | - | 3,3 | 27,8 | 14,4 | 20,7 | 21,7 |
| 2017 | 8,5 | - | 39,5 | 58,9 | 5,0 | 19,8 | 31,5 |
| 2018 | 6,2 | 15,6 | 70,3 | 68,7 | 10,3 | 20,2 | 41,4 |
| 2019 | 3,6 | 19,2 | 22,0 | 56,2 | 2,9 | 11,2 | 33,1 |

*Mənbə: www.stat.gov.az*

Cədvəldə verilən statistik məlumatların təhlilindən məlum olur ki, pambıq, üzüm və tərəvəz istisna olmaqla digər məhsulların rentabelliyi artımla müşayiət olunmuşdur.Adı çəkilən məhsulların rentabelliyində 2019-cu ildə əvvəlki illə müqaiysədə azalma düqqəti cəlb edir. Burada təbii-iqlim amili ilə yanaşı, ərazilərin işğalı ilə əlaqədar olaraq, mövcud su resurslarından istifadənin məhdudluğu səbəbindən məhsuldarlığın azalması və bir sıra hallarda texnika çatışmazlıq üzündən məhsulun vaxtında yığılmamasından irəli gələn itkilərin özünəmıxsus təsirləri vardır.İstənilən halda rentabelliyin aşağı olması müvafiq sahələrə sahibkarların və potensial investorların marağını azaldır.

Aqrar sahənin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi ölkədə emal sahələrinin inkişafına da əlverişli şərait yaradır. Burada genişmiqyaslı tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan böyük investisiya imkanlarına malikdir. Belə real imkanlar toxuculuq məhsullarının, qida məhsulları, eləcə də dəri və dəri məmulatlarının istehsalı üçün səciyyəvidir. Azərbaycanda regionların davamlı sosial-iqtisadi inkişafına dair qəbul edilmiş proqramlarda aqrar sahənin regional inkişafı səviyyəsinin iqtisadiyyatın digər sahələri ilə tarazlaşdırılması, eyni zamanda ölkənin iqtisadi rayonları üzrə aqrar sahənin inkişafının təşkilati-iqtisadi mexanizmləri müəyyən edilmişdir. Bunlar da nəticə etibarilə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətində özünü büruzə verir.

Cədvəl 2-nin məlumatlarının təhlilindən görünür ki, 2017-2019-cu illər ərzində kənd təsərrüfatı müəssisələrinin, o cümlədən mənfəət və ziyanla işləyən müəssisələrin sayında müəyyən tərəddüdlər baş vermişdir. Həmin dövrdə müəssisələrin ümumi sayında 170, mənfəətlə işləyən müəssisələrin sayında isə 184 vahid azalma müşahidə olunmuşdur. lakin, zərərlə işləyən müəssisələrin sayında isə ciddi dəyişiklik baş verməmişdir. Təhlil dövründə kənd təsərrüfatı məhsullarının rentabelliyi orta hesabla 15 faiz təşkil etsə də heyvandarlıqda rentabelliyin həddən aşağı olması (7.4 faiz) təəssüf doğurur.Bunun əksinə olaraq, araşdırma dövründə bitkiçilik sahəsində rentabellik 36 faiz təşkil etmişdir. Bunu əsasən heyvandarlıqda yemin bahalaşması və bu məhsulların ixracda

payının az olması ilə əlaqələndirmək olar. Reallıq ondan ibarətdir ki, rentabelliyin aşağı olması, aqrar istehsalçıların mərkəzi bazarlara çıxışının məhdud olması, eləcə də emal və tədarük müəssisələrinin istehsal gücünün və tutumunun aşağı olması aqrar sahənin investisiya cəlbediciliyini aşağı salır.

*Cədvəl 2.*

***Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri***

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 1659 | 1592 | 1608 | 1641 | 1471 |
| o cümlədən: | | | | | |
| mənfəətlə işləyənlər | 1530 | 1488 | 1512 | 1560 | 1376 |
| zərərlə işləyənlər | 129 | 104 | 96 | 81 | 95 |
| Ümumi gəlir, min manat | 84990 | 119130 | 115025 | 163990 | 190080 |
| Ümumi mənfəət, min manat | 39763 | 75246 | 62815 | 96917 | 92696 |
| Ümumi rentabellik, faizlə | 11,3 | 20,3 | 14,1 | 20,1 | 17,2 |
| Bitkiçilikdə mənfəət (zərər (-), min manat | 20241 | 40268 | 32235 | 56577 | 68795 |
| Heyvandarlıqda mənfəət (zərər (-), min manat | 19993 | 31330 | 24356 | 19048 | 10481 |
| Kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi, faizlə | 11,3 | 19,4 | 12,9 | 16,2 | 15,3 |
| ondan | | | | | |
| bitkiçilikdə | 36,0 | 43,5 | 25,5 | 40,4 | 35,7 |
| heyvandarlıqda | 7,1 | 11,8 | 8,0 | 5,9 | 3,4 |

*Mənbə: www.stat.gov.az*

**Aqrar investisiyalaşdırmanın təkmilləşdirilməsi istiqamətləri.** Xarici ölkələrin təcrübəsindən məlum olur ki, makroiqtisadi tənzimləmə metodu kimi büdcə yardımları əsasən aqrar istehsalçıların mineral gübrələrə və kimyəvi vasitələrə sərf etdikləri vəsaitlərin müəyyən hissəsinin, həmçinin qarışıq yemlərə olan tələbatın ödənilməsi xərclərinin kompensasiyasına yönəldilir. Bundan əlavə kənd təsərrüfatına kredit qoyuluşları aqrar sahənin inkişafında mühüm əhəmiyyət daşıyır. Bu zaman aqrar sığorta xərclərinin və bank kreditlərinə görə faizlərin ödənilməsi xərclərinin bir hissəsinin dövlət büdcəsi vəsaitləri hesabına ödənilməsi də mühüm məsələlərdir.

Hazırkı şəraitdə milli iqtisadiyyatın, o cümlədən, qeyri-neft sektorunun region, sahə və ərazi baxımından tarazlı inkişafı aqrar sahənin investisiya təminatında prioritetlərin əsaslandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. İstənilən halda sahənin investisiyalaşdırılmasının mövcud səviyyəsinin saxlanılması onun inkişafı sabitliyinin qorunmasına yönəldilən vacib addımlardan biri kimi qiymətləndirilməlidir. Bu fikrin davamı olaraq, dünyanın bir sıra ölkələrinin maliyyə böhranı ilə mübarizə apardığı şəraitdə ölkəmizdə kənd təsərrüfatına investisiya qoyuluşlarının müsbət dinamikası müşahidə olunur. Bunun mütləq və nisbi kəmiyyətlərlə real ifadəsini aşağıdakı cədvəldən əyani şəkildə görmək olar.





*Cədvəl 3.*

***İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya qoyuluşunun dinamikası***

| İllər | Cəmi | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | sənaye | kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | digər sahələr |
| milyon manat | | | | | | | |
| 2015 | 15957,0 | 8499,9 | 355,4 | 2123,5 | 2199,9 | 335,3 | 2443,0 |
| 2016 | 16772,8 | 9949,8 | 325,1 | 2831,8 | 1392,3 | 199,4 | 1074,4 |
| 2017 | 17430,3 | 10610,1 | 617,8 | 2746,0 | 1777,7 | 171,9 | 1506,8 |
| 2018 | 17244,9 | 8497,2 | 764,4 | 3721,4 | 1926,6 | 441,5 | 1893,8 |
| 2019 | 18539,5 | 9258,0 | 769,5 | 3550,4 | 2190,7 | 547,1 | 2223,8 |
| faiz | | | | | | | |
| 2015 | 100,0 | 53,3 | 2,2 | 13,3 | 13,8 | 2,1 | 15,3 |
| 2016 | 100,0 | 63,1 | 2,1 | 17,9 | 8,8 | 1,3 | 6,8 |
| 2017 | 100,0 | 60,9 | 3,5 | 15,8 | 10,2 | 1,0 | 8,6 |
| 2018 | 100,0 | 49,3 | 4,4 | 21,6 | 11,2 | 2,6 | 10,9 |
| 2019 | 100,0 | 49,9 | 4,2 | 19,2 | 11,8 | 3,0 | 11,9 |

*Mənbə: www.stat.gov.az*

Cədvəl məlumatlarından göünür ki, 2015-2016-cı illər istisna olmaqla təhlil dövründə kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşlarının həcmi artan dinamika ilə 40.7 mln.manatdan 769.5 mln.manata qədər yaxud 19 dəfə artmışdır.Milli iqtisadiyyatın bu bölməsinə investisiya qoyuluşunun həcmi yalnız "informasiya və rabitə" sahəsindən üstün olsa da artım tempi baxımından bütün sahələri qabaqlayır. Buna baxmayaraq adı çəkilən hər iki sahədə investisiya qoyuluşunun əvvəlki ilə nisbətən artım faizi hələlik zəifdir. Düşünürük ki, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan tədbirlər nəticəsində aqrar sahəyə investisiya qoyuluşlarının illik artım tempi yaxın illərdə daha sürətlə artacaqdır. Bu da bir həqiqətdir ki, aqrar sahədə dayanıqlı inkişafın təmin olunmasınadək maliyyə yardımlarının göstərilməsi davam etdirilməlidir.Lakin bəzi beynəlxalq təşkilatlar aqrar istehsalçılara maliyyə yardımlarının göstərilməsini dəstəkləmirlər. Onlar bunu əsasən süni şəkildə aqrar sahənin rəqabət qabiliyyətinin artırılmasına cəhd kimi qəbul edirlər. Lakin, mövcud təcrübə və tədqiqatlar göstərir ki, aqrar istehsalçıların məqsədli maliyyələşdirilməsi zərurətdir, həm milli məsələ və həm də beynəlxalq səviyyəli problemdir.

Son illərdə respublikamızda aparılan iqtisadi siyasətin nəticəsi kimi, respublikanın müxtəlif regionlarında rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalının, eləcə də müasir texnologiyalardan istifadə imkanlarına sahib olan aqrar istehsal və emal müəssisələrinin təşkilinə zəruri ictimai, hüquqi və iqtisadi şərait yaranmışdır. Lakin hələ milli iqtisadiyyatın inkişaf konsepsiyasında, onun ayrı-ayrı sahələrinin inkişafı üzrə Strateji Yol Xəritələrində və regionların sosial-iqtisadi inkişaf proqramlarında aqrar sahənin inkişaf perspektivləri ilə bağlı hədəf və prioritetlərə tam şəkildə nail olunmamışdır.

Beləliklə, aqrar sahənin davamlı inkişafı naminə xarici investisiyaların cəlb edilməsi, beynəlxalq maliyyə-kredit qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi, idxal olunan aqrar istehsal məhsullarının daxili istehsalının artırılması üçün aqrar sahibkarlıq subyektlərinə maliyyə dəstəyi davamlı olmalıdır. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aqrar subyektləri əlverişli şərtlərlə kreditləşdirmək imkanları olan ixtisaslaşdırılmış aqrobanklar yaradılmalıdır. Bundan əlavə aqrar sığorta və sahəvi risklərin idarə olunması mexanizmləri də davamlı şəkildə təkmilləşdirilməlidir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", Bakı, 2016.
2. "Azərbaycan Respublikasında kənd təsərrufatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 2017.
3. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 s.
4. Rayonların investisiya reytinqi. İqtisad İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. Bakı, 19 aprel 2017-ci il - 8 s.
5. Гюльалиев М., Алиев Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана // Экономический Вестник Донбасса, №3 (41), 2015, с. 67-74.
6. Ясенева О.Ю., Орлов А.Ю., Лаврухина Н.В. Проблемы оценки инвестиционной привлекательности предприятия // Журнал «Экономика и социум», №11(30), 2016.
7. www.stat.gov.az
8. http://ecoreform.az.

***Саадат Мирага кызы Маджидова***
***Азербайджанский Государственный***
***Экономический Университет, преподаватель***

***Оранизационно- экономические механизмы повышения инвестиционной привлекательности аграрной сферы***

***Резюме***

Инвестиционная привлекательность один из показателей высокого уровня развития отрасли. Поддержание и доведение его до оптимального уровня одно из приоритетных направлений развития аграрного сектора. Здесь на первый план выходит оптимизация технической и финансовой поддержки, налоговых и кредитных льгот, предоставляемых государством хозяйствующим субъектам.

В представленной статье отражены направления повышения инвестиционной привлекательности аграрного сектора на основе стратегических программ, проектов и концепций.

***Ключавые слова: инвестиции, эффективность, бюджет, конкуренция, налог, рентабельность, прибыль.***

***Saadat Miraga Majidova***
***Azerbaijan State University of Economics, teacher.***

**Summary**

Investment attractiveness is one of the indicators of the high level of development of the industry. Maintaining and raising it to an optimal level is one of the priorities for the development of the agricultural sector. Here, the optimization of technical and financial support, tax and credit benefits provided by the state to economic entities comes to the fore.

The presented article reflects the directions of increasing the investment attractiveness of the agricultural sector based on strategic programs, projects and concepts.

***Key words: investment, efficiency, budget, competition, tax, profitability, profit.***